# ŞİKAROV ŞİKAR ŞÜKÜR OĞLU



Şikarov Şikar 3 dekabr 1953-cü ildə Bakı şəhərində anadan olmuşdur. 1971-ci ildə 46 saylı orta məktəbi bitirərək, Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinə qəbul olunmuşdur. 1975-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa vuraraq, təyinatla Primorsk vilayətindəki hərbi hissələrdən birində rota komandiri göndərilmişdir. 1986-cı ildə Moskvada Frunze adına Hərbi Akademiyaya daxil olmuşdur. 1989-cu ildə akademiyanı bitirərək polkovnik-leytenant rütbəsi ilə Ukraynanın Luqansk şəhərində yerləşən hərbi hissələrdən birinə qərargah rəisi təyin olunmuşdur. O, həmçinin Almaniyada təkmilləşdirmə kursu keçmişdir. 1990-cı il 20 yanvar hadisələrindən sonra vətənə qayıdaraq, əvvəl Mülki Müdafiə Baş Qərargahında əməliyyat şöbəsinin rəisi, 1992-ci ildə Müdafiə Nazirliyi Baş Qərargah rəisinin birinci müavini təyin edilmişdir. Ş.Şikarov 1992-ci ildə Goranboy rayonuna gəlir, işğal olunmuş ərazilərin erməni yaraqlılarından azad olunması əməliyyatını hazırlayır. Rayonun bir sıra kəndləri düşməndən azad olunur. Növbəti dəfə Ağdərədə keçirilən uğurlu əməliyyat nəticəsində düşmənin xeyli sayda hərbi texnikası, canlı qüvvəsi məhv edilmiş, Tərtər rayonunun top və raket atəşinə tutulmasına son qoyulmuşdur. 1992-ci il iyunun 13-də Ağdərədə vəziyyət yenidən pisləşmişdi. Ermənilər böyük qüvvə ilə hücuma keçmişdilər. Şikar qısa zamanda əməliyyat planı hazırladı. Batalyonu ayağa qaldırıb hücum əmri verdi. Yaranmış gərgin vəziyyətdən sonra ermənilər geri çəkilməyə məcbur olmuşlar. Lakin, özü buradakı döyüşdə şəhidlik zirvəsinə ucalmışdır. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. İki övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə polkonik Şikarov Şikar Şükür oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Qobustan rayonunun Sündü kənd tam orta məktəbi onun adını daşıyır.